# MÜBARİZ KEŞİKDƏ

13 sentyabr 2018-ci il
Cümə axşamı

№ 36 (3400)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Zaqreb şəhərinin "Franyo Tucman" aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Xorvatiya Prezidenti ofisinin rəhbəri xanım Anamariya Kiriniç və digər rəsmi şəxslər qarşılayıblar.

Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 6-da rəsmi qarşılanma mərasimi olub.

Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Prezidentlər birgə foto çəkdiriblər.

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb.

Azərbaycan Prezidentinin rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Daha sonra sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər.

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu, Xorvatiya uğrunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad etdi.

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib.

Xorvatiyanın Baş naziri Andrey Plenkoviç Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycan Prezidenti dövlət iqamətgahının fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Prezident İlham Əliyev və Baş nazir Andrey Plenkoviç birgə foto çəkdiriblər.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, iqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb. Həmçinin kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Söhbət zamanı ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirilib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya Respublikası parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb.

Parlament sədri Prezident İlham Əliyevi qarşılayıb.

Azərbaycan Prezidenti və Xorvatiya parlamentinin sədri birgə foto çəkdiriblər.

Görüşdə Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərinin uğurlu keçdiyi, səfər çərçivəsində səmərəli müzakirələrin aparıldığı qeyd edilib. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Sentyabrın 6-da Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

Dövlət başçıları rəsmi ziyafətdə çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri sentyabrın 6-da başa çatıb.

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsində 227, Nəsimi rayonunda general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəblərdə və Səbail rayonunda Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.***

**Ətraflı gələn sayımızda.**

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı sentyabrın 5-də milli bayram – Müstəqillik Günü münasibətilə Makedoniya Respublikasının Prezidenti zati-aliləri cənab Gyorge İvanova təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri sentyabrın 5-də əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Sentyabrın 6-da Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Emoməli Rəhmona təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Sentyabrın 7-də dövlətimizin başçısı Hacıqabul rayonunun Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi (103 km)-Navahı-Pirsaat avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Sentyabrın 7-də ölkəmizin rəhbəri Yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasına təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 8-də Zərdab rayonunun Zərdab-Qaravəlli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı sentyabrın 10-da Şabran rayonunun Şabran-Əmirxanlı-Qazbabalı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri sentyabrın 10-da İsmayıllı rayonunun İvanovka kənd Mədəniyyət Sarayının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Sabirabad rayonunun Dadaşbəyli – Çöl Ağaməmmədli–Xankeçən–Salmanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı sentyabrın 11-də Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri sentyabrın 12-də Çex Respublikasının sənaye və ticarət naziri xanım Marta Novakovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

## ƏBƏDİ QARDAŞLIĞIN ŞƏRƏFLİ TARİXİ

15 sentyabr Azərbaycanın tarixində unudulmaz və şərəfli səhifələrdən biridir. Bakının bolşevik hərbi birləşmələri, yadelli işğalçılar və daşnak quldurlardan azad edilməsindən 100 il keçir.

1918-ci ilin mart-aprel aylarında paytaxtda başlanan kütləvi qırğınlar minlərlə günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın amansızcasına öldürülməsi ilə nəticələndi. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürüldü. Şamaxıda, Göyçayda, Hacıqabulda, Qubada, Xaçmazda, Salyanda, Lənkəranda, Muğanda, Dağlıq-Qarabağda və başqa bölgələrdə erməni daşnakları tərəfindən qətlə yetirilənlərin sayı 50 mindən artıq idi...

## MƏKTƏB İLLƏRİ DAHA BİRİ DƏ GƏLDİ

Uzun, amma bir o qədər də tez keçən yay tətilinin sonunda məktəb günlərinə yetişdik. Daha bir ilk zəng, daha özəl və gözəl...

Yeri gəlmişkən, bu tədris ilində Azərbaycanın ümumtəhsil məktəblərinin 1-ci siniflərinə 164780 övladımız ilk qədəmlərini basacaq. Bu rəqəm ötən illə müqayisədə artıb. Belə ki, ötən tədris ilində ölkə üzrə 164033 nəfər şagird birinci sinifə getmişdir...

Müstəqil Azərbaycan kifayət qədər mürəkkəb və strateji əhəmiyyətli regionda yerləşdiyinə görə xarici siyasət kursunu müəyyənləşdirərkən, bir tərəfdən milli maraqlarını qorumaq, bölgənin aparıcı dövləti statusunu möhkəmlətmək, digər tərəfdən regionda maraqları olan bütün dövlətlərlə, eləcə də qonşu ölkələrlə bərabərhüquqlu tərəfdaşlıq münasibətlərini genişləndirmək meyarından çıxış edir. Yəni Azərbaycan bütün ölkələrlə qarşılıqlı anlaşma, hörmət və heç bir dövlətin daxili işlərinə qarışmama prinsipinə əsaslanan müstəqil siyasət həyata keçirir...

*Bax səh.2.*

# ƏBƏDİ QARDAŞLIĞIN ŞƏRƏFLİ TARİXİ

**15 sentyabr Azərbaycanın tarixində unudulmaz və şərəfli səhifələrdən biridir. Bakının bolşevik hərbi birləşmələri, yadelli işğalçılar və daşnak quldurlardan azad edilməsindən 100 il keçir.**

1918-ci ilin mart-aprel aylarında paytaxtda başlanan kütləvi qırğınlar minlərlə günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın amansızcasına öldürülməsi ilə nəticələndi. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürüldü. Şamaxıda, Göyçayda, Hacıqabulda, Qubada, Xaçmazda, Salyanda, Lənkəranda,



Muğanda, Dağlıq-Qarabağda və başqa bölgələrdə erməni daşnakları tərəfindən qətlə yetirilənlərin sayı 50 mindən artıq idi. Şamaxıda 58 kənd, Qubada 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 92 kənd yerlə-yeksan edildi, dağıdıldı.

Qardaş Türkiyə dövləti Azərbaycanda baş verən soyqırıma laqeyd qalmadı. Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə 29 yaşına baxmayaraq, böyük döyüş təcrübəsi olan, cəsur sərkərdə kimi tanınan Nuru Paşa təyin olundu. Ona Sultan tərəfindən növbədənkənar general-mayor rütbəsi verildi. Nuru Paşa dövlətin müdafiə naziri Ənvər Paşanın qardaşı idi.

Nuru Paşanın rəhbərlik etdiyi ordu 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək biri-birinin ardınca uğurlu döyüş əməliyyatları apararaq Azərbaycan torpaqlarını bolşevik-daşnak qüvvələrindən təmizlədi və həmin ilin 15 sentyabrında Bakını azad etdi. Türkiyəli qardaşlarımız bu döyüşdə 1130 şəhid verdilər.

Bakı azad edildikdən sonra Qafqaz İslam Ordusunun hissələri Qarabağa göndərildi. Qarabağın erməni daşnaklarından təmizlənməsi əməliyyatına başlanıldı və uğurlu döyüşlərlə qoşunlar Şuşaya daxil olaraq şəhərdə Azərbaycan bayrağını qaldırdılar.

Türkiyənin Birinci Dünya müharibəsində məğlub olması Nuru Paşanın işini yarımçıq qoydu. 1918-ci il oktyabrın 30-da imzalanmış Mudros müqaviləsindən sonra türkiyəli qardaşlarımız Azərbaycanı tərk etmək məcburiyyətində qaldılar. Nuru Paşa 1920-ci il aprel çevrilişindən sonra da gizli olaraq bir qrup zabitlə Dağıstandan keçərək Şuşaya gəldi və bolşeviklərə qarşı üsyan qaldırdı.

Bakının azad olunması Azərbaycan-Türkiyə qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük bir tarixi hadisədir. Sovet əsarəti illərində bu hadisənin əhəmiyyətini məqsədli şəkildə unutdurmağa çalışsalar da, xalq qardaş qəhrəmanlığını könlündə yaşatdı, onu heç bir zaman unutmadı.

Hər il Bakının azad olunmasının ildönümü tədbirləri Şəhidlər xiyabanında ucaldılmış abidənin önündə anım mərasimi ilə başlanır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il sentyabr ayının 29-da saat 10:00-da Lənkəran Şəhər-Rayon Polis Şöbəsində Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# XİDMƏTƏ DAVAM...ZABİT KİMİ...

**Sentyabrın 12-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasını bitirmiş, Əlahiddə Çevik Polis Alayında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların paytaxtın, Sumqayıt şəhərinin və Abşeron rayonunun polis orqanlarında vakant olan zabit yerlərinə təyin edilmələrinə həsr olunmuş püşkatma keçirilib.**

**Daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini xatırladıb və son illər bu praktikadan geniş istifadə olunduğunu bildirib.** Nazir müavini qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin parlaq gələcəyinin yüksək intellektə, geniş dünyagörüşünə, dərin biliyə və işgüzarlığa malik, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq, vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğulayıb.

O deyib ki, belə yüksək mənəvi və iş keyfiyyətlərinə malik şəxslərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri, onların ölkəmizin ictimai-siyasi həyatında daha geniş şəkildə təmsil olunmaları üçün zəruri addımlar atılır. Hazırkı tədbir göstərilən sahədə həyata keçirilən məqsədyönlü siyasətin növbəti əyani təzahürüdür.

Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov Nazirliyə 23 əməkdaşın dəvət edildiyini bildirib və namizədlərin siyahısını elan edib. Daha sonra iddiaçılar orta rəis heyətinə aid müxtəlif vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkiblər.

Onların nəzərinə çatdırılıb ki, püşkatmada iştirak etmiş bütün əməkdaşlar daxili işlər nazirinin müvafiq əmrləri ilə «polis leytenantı» xüsusi rütbəsi verilməklə zabit vəzifələrinə təyin olunurlar.

Tədbirə yekun vuran polis general-leytenantı İsmət Əliyev daxili işlər naziri, general-polkovnik cənab Ramil Usubovun adından gənc əməkdaşları təbrik edərək çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, daim bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib. O, əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.

*M.Orxan*

# MƏKTƏB İLLƏRİ DAHA BİRİ DƏ GƏLDİ

**Uzun, amma bir o qədər də tez keçən yay tətilinin sonunda məktəb günlərinə yetişdik. Daha bir ilk zəng, daha özəl və gözəl...**

**Yeri gəlmişkən, bu tədris ilində Azərbaycanın ümumtəhsil məktəblərinin 1-ci siniflərinə 164780 övladımız ilk qədəmlərini basacaq. Bu rəqəm ötən illə müqayisədə artıb. Belə ki, ötən tədris ilində ölkə üzrə 164033 nəfər şagird birinci sinifə getmişdir.**

Yeni dərs ilinə hazırlıq çərçivəsində ümumtəhsil müəssisələrinin təmir və tikintisi davam etdirilib. Hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilib, 22 məktəb binasında isə əsaslı təmir işləri aparılıb. 2018-ci ildə respublika ərazisində 137 modul tipli təhsil müəssisəsi istifadəyə verilib.




Tarix boyu özünə hörmət edən, kimliyinə dəyər verən toplumlarda elmə, biliyə yiyələnmək və onu tədris etmək şərəfli iş hesab olunub. Dinimizə görə elm öyrənmək Allaha ibadət qədər əhəmiyyətlidir. Bu haqda Məhəmməd Peyğəmbərin hikmətli sözləri vardır: Elm tələbi üçün yola çıxan kimsə dönüncəyə qədər Allah yolundadır. Azərbaycan elminin tarixində, dünya elminin inkişafına öz töhfələrini verən Nəsrəddin Tusi, Bəhmənyar, Abbasqulu Ağa Bakıxanov, Firudin bəy Köçərli kimi yüzlərlə alim və filosoflarımız olmuşdur.

Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Möhtərəm Prezidentimizin xüsusi diqqəti, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir.

Elmin, təhsilin inkişafında, dünya miqyasında tanınmasında Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Fondun təhsil sahəsində ardıcıl olaraq iri miqyaslı layihələr həyata keçirməsi Azərbaycan təhsilini dünya standartları səviyyəsinə qaldırmışdır. Fond təhsil sahəsinin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşır, bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" və digər layihələri fond uğurla gerçəkləşdirmişdir. Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahəni inkişaf etdirərək beynəlxalq səviyyəyə çatdırmaqdır. Fondun fəaliyyət göstərdiyi ötən illər ərzində ölkənin ərazisində istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompyuter avadanlığı ilə təchiz olunmuş yüzlərlə yeni məktəb binası tikilərək istifadəyə verilib.

Təhsilə göstərilən qayğı müstəqil dövlətimizin xoşbəxt gələcəyinə münbit zəmin yaradır.

***Məktəb illəri. Biri də gəldi. Ayağı, qisməti uğurlu olsun...***

*Aytən Tahirova,*
*polis leytenantı*

# AZƏRBAYCAN İQTİSADİYYATININ COĞRAFİYASI GENİŞLƏNİR

## BU İSTİQAMƏTDƏ ƏLDƏ ETDİYİMİZ NAİLİYYƏTLƏR DÖVLƏTİMİZİN QÜDRƏTİNİN GÖSTƏRİCİSİDİR

**Qloballaşan dünyada geosiyasi sabitliyə, bərabərhüquqlu siyasətə əsaslanmadan beynəlxalq səviyyədə istənilən zəruri qarşılıqlı fəaliyyətə nail olmaq mümkünsüzdür.**

Müstəqil Azərbaycan kifayət qədər mürəkkəb və strateji əhəmiyyətli regionda yerləşdiyinə görə xarici siyasət kursunu müəyyənləşdirərkən, bir tərəfdən milli maraqlarını qorumaq, bölgənin aparıcı dövləti statusunu möhkəmlətmək, digər tərəfdən regionda maraqları olan bütün dövlətlərlə, eləcə də qonşu ölkələrlə bərabərhüquqlu tərəfdaşlıq münasibətlərini genişləndirmək meyarından çıxış edir. Yəni Azərbaycan bütün ölkələrlə qarşılıqlı anlaşma, hörmət və heç bir dövlətin daxili işlərinə qarışmama prinsipinə əsaslanan müstəqil siyasət həyata keçirir.



Son illərdə Azərbaycanın iqtisadi uğurlarının mühüm amillərindən birini məhz xarici iqtisadi əlaqələrin inkişafı, tədiyyə balansının müsbət saldosu təşkil edir. İxracın həcmi artıq neçə illərdir ki, idxalın həcmini əhəmiyyətli dərəcədə üstələyir. İxracyönümlü istehsalın genişləndirilməsi istiqamətində görülən işlər ixracın strukturunun xeyli dərəcədə təkmilləşməsini təmin edib. Bunu rəqəmlərə nəzər yetirdikdə də açıq-aydın hiss etmək mümkündür.

Ötən ilin yanvar ayından bu ilin 31 iyul tarixinə kimi azexport.az portalına dünyanın 100 ölkəsindən ixrac sifarişləri daxil olub. Bu sifarişlərin dəyəri 790,5 milyon dollar təşkil edib.

Məlumat İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın 2018-ci ilin avqust sayında əksini tapıb. İcmalın bu sayında qeyri-neft sektoru üzrə ixracın son statistikası və ən çox məhsulumuzun hansı ölkələrə ixrac edildiyi də göstərilib. ***Qeyd edilib ki, son 7 ay ərzində qeyri-neft sektoru üzrə ixrac 969 milyon dollar təşkil edib.***

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 7 ay ərzində Rusiyaya 353 milyon, Türkiyəyə 215 milyon, Gürcüstana 81 milyon, İsveçrəyə 78 milyon və Çinə 29 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.Bu il Azərbaycanın paytaxtında, eləcə də iri şəhərlərdə, ayrı-ayrı rayonlarda bir sıra yeni sənaye müəssisələri, sosial obyektlər, yaşayış evləri, digər tikililər istifadəyə verilib. Bunların arasında iri zavodlar, elektrik yarımstansiyaları, tibb müəssisələri, ümumtəhsil məktəbləri, idarə binaları və s. var. Bir sıra yeni yolların açılışı olub, infrastruktur layihələri yekunlaşıb.

Azərbaycanın sənaye xəritəsindəki yeni müəssisələrdən elələri var ki, ölkəmizin yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin bəhrəsidir. İran İslam Respublikasının Prezidentinin bu ilin mart ayında Azərbaycana rəsmi səfəri zamanı açılış mərasimi keçirilmiş "Xəzər" Avtomobil Zavodu buna aydın misaldır. Bu müəssisəni Neftçala Sənaye Məhəlləsində "Azərmaş" ASC və "İran Khodro" şirkətləri birgə yaradıblar.

"Xəzər"də İran İslam Respublikasının və Avropanın aparıcı ölkələrinin müasir texnologiyaları əsasında müxtəlif avtomobil modelləri istehsal olunur. Zavodun dəyəri 15 milyon ABŞ dolları-dır, səhmlərinin 75 faizi "Azərmaş"a, 25 faizi "İran Khodro" şirkətinə məxsusdur. Burada buraxılan avtomobillər "Made in Azerbaijan" brendi altında yerli və xarici bazarlara çıxarılacaq. İlkin mərhələdə zavodda ildə 10 min, daha sonra 15 min avtomobil istehsal ediləcək. Yaxın gələcəkdə isə buraxılan avtomobillərin sayı 50 minə çatacaq. Həmin avtomobillərin hissələrinin istehsalının təşkili də nəzərdə tutulur ki, bunun üçün Azərbaycanın özəl sektorunun sərmayə qoyuluşu ilə ayrıca şirkət yaradılacaq.



İyul ayında Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən Polipropilen Zavodunun açılışı oldu. Açılış mərasimində ölkə rəhbərimizlə yanaşı, Azərbaycanda rəsmi səfərdə olan İtaliyanın dövlət başçısı da iştirak etdi.

Hazırda ölkəmiz aşağısıxlıqlı polietileni ixrac, yüksəksıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın yerli məhsulla əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır.

"SOCAR Polymer" zavodları ildə 19 növ olmaqla 184 min ton polipropilen və 12 növ olmaqla 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. Bu məhsullar sahibkarlıq subyektlərinin xammalla təchiz olunmasında əhəmiyyətli rol oynayacaq, respublikanın ixrac potensialının möhkəmlənməsinə əlavə stimul verəcək.

Polipropilen qablaşdırma materialları, tekstil, dəftərxana ləvazimatı, avtomobil hissələri, elektron və elektrik cihazları və başqa bu kimi sektorlarda geniş çeşidli istehlak mallarının və dəstləşdirmə hissələrinin istehsalında istifadə olunan əsas ilkin materialdır. Ticarət həcminə görə də ən vacib plastik məhsullardan sayılır. "Ekoloji cəhətdən təmiz plastik" adlandırılan polipropilen qida məhsullarının qablaşdırılması və tibb sənayesinə aid bütün sahələrdə istifadə oluna bilər.

Qarşıdakı hədəflər isə daha mükəmməl və əhatəlidir. Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən, konseptual əhəmiyyətli "Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" sənəddə 2016-2020-ci illəri əhatə edən strateji yol xəritələri, həmin dövr üçün tədbirlər planı, 2025-ci ilədək hədəflər, perspektivlər əksini tapır. İqtisadi islahatlar paketi çərçivəsində biznes mühitinin yaxşılaşdırılması, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının azaldılması, sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin sayının endirilməsi ilə bağlı qərarların hər biri özlüyündə ölkə iqtisadiyyatının inkişafına təsir göstərə biləcək qədər zəruri və əhəmiyyətlidir.

*Zeyni Hüseynov*

**“Aprel şəhidləri”. Bu gün bütün Azərbaycan xalqı onları belə tanıyır, belə yadda saxlayır. Axı, ilin hər ayında, təqvimin hər günündə bir şəhid vermişik, toyu çalınmayan, xonçası qırmızı qalan bir oğul itirmişik. Nə etmək olar, bu sənin, mənim, bizim yox, torpağımızın alın yazısıdır.**

Onlarla igid oğulun düşmən həmləsini dəf edərək əks-hücuma keçməsi ilə o gün Azərbaycan kiçik qələbənin böyük tarixini yazdı. O gün düşmənin “keçilməyən səddini” bir göz qırpımında keçdik. Vətənimizin gücünü görən düşmənin havadarları əl-ayağa, daha doğrusu, qorxuya düşüb əllərindən gələni etdilər ki, bu el gücünün, xalqın daşmış səbrinin qarşısını kəssinlər. Onlar kəsə bilmədilər, amma biz sülhə, əmin-amanlığa xatir o ildırım sürətli yürüşü dayandırdıq.



İsmayılovla əlaqə saxlayıb, fikrimi ona bildirəndə: “Sən nə vaxt gedəcəyini de, biz hazırıq” deməsi və özümdən ixtiyarsız gözlərimin dolub, qəhərin məni boğması sözümü tamamlamağa imkan vermədi. Hiss etdim ki, o da tutuldu.

Handan-hana dilləndim: “Oldu, mütləq deyəcəyəm”…

Şəhidlərimizin ailələri ilə görüşə oğlum Turanı da aparacağımı eşidəndə valideynlərim: “Ora uşaq yeri deyil”,-deyib etiraz etdilər. “Bəs, nə üçün düşmənlərimiz olmayan faciəni körpələrin beyninə, yaddaşına qazıyırlar” cavabımdan sonra razılaşdılar...

İdarə rəisi ziyarət üçün hazırlıq görməyi 4-cü Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Etibar Balakişiyevə həvalə etmişdi. Bələdçimiz isə rəis müavini, polis mayoru Yalçın Yaqubov və təhqiqatçı, polis kapitanı Emil Abbaszadə idi.

Şəhid Fəxrəddin Qurbanlının doğulduğu evin qarşısında bizi ilk salamlayan Azərbaycan bayrağı oldu və Turanın sayğı duruşu ilə bayrağa hərbi salam verməsi hamımızı heyrətləndirdi. Uşaq olsa da o hara gəldiyini anlamışdı.

Mənə elə gəldi ki, ayaqlarımdan dəyirman daşı asılıb, dizlərimin “kəndiri kəsilib”. Şəhid ocağına üz tutanlar bu hissi yaxşı bilirlər…

Qapını üzümüzə açan kişinin baxışları “Şəhid Fəx-

ğu torpağın iniltisini eşitmək adamı lap dəli eləyirdi. İllər keçdi, yaramız az da olsa qaysaq tutdu, ancaq həsrətimiz azalmadı. Qayğılara başımız elə qarışdı ki, uşaqların böyüməsindən xəbərimiz olmadı. Bir də gördük bizimlə bir boy-buxundadırlar. Amma Fəxrəddini itirəndən sonra elə bildim ki, doğulduğum torpağı yenidən itirdim.”…

Dərdli ananı ovutmağa söz tapmırıq. Sadəcə, gözümüzü albomdakı şəkillərə zilləyib onun son döyüşünü xəyalımızda canlandırırıq.

Və qısa xatırlatma…

**Fəxrəddin Seyfəddin oğlu Qurbanlı** 13 yanvar 1994-cü ildə Bakıda doğulub. 2011-ci ildə orta təhsilini başa vurduqdan sonra Azərbaycan Universitetinə



# TARİXƏ DÖNƏNLƏR, TARİXDƏ QALANLAR

## Və ya bu Aprel o apreldən deyildi...

Şəhidlər verdik. Sanki bir möcüzə oldu. Azad etdiyimiz torpaqlar şəhidlərin ağrısını çəkmək üçün bizə təsəlli oldu. (Mən azad olunmuş torpağın sevincini Lələtəpəni ziyarətə gedərkən gözlərimlə gördüm).

Bu həqiqət imiş, gəlişigözəl söz kimi deyilməyibmiş: “Torpaq, uğrunda ölən varsa Vətəndir!”…

“Aprel şəhidləri”. Onların doğulduqları, boya-başa çatdıqları evi, ocağı tapmaq elə də çətin deyil. Adlarını çəkən kimi sanki bir işıq seli yol-yoldaşın olub səni onların doğulduğu ocağa aparır.

Hərəsi bir kənddə, bir şəhərdə doğulsa da, bu gün onların bir ünvanı var: Azərbaycan!

Telefonuma gələn zəngdən sonra mənə elə gəldi ki, günlərlə beynimdə gəzdirdiyim fikri hamı bilir. Xəttin o başından Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Bakı Dövlət Universitetinin doktorantı Aynur Səfərlinin “Vaxt elə, bir-iki günə şəhidlərimiz Emin Bağırovun və Fəxrəddin Qurbanlının ailələrini ziyarət edək”,- deməsinə matım-qutum qurudu. Ürəkdən-ürəyə, qəlbdən-qəlbə yol varmış, İlahi…

“Sənə xəbər edərəm”,- dedikdən sonra Binəqədi Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Namiq

rəddinin atası mənəm, ocağıma xoş gəlmisiniz” deyirdi. Bütün şəhid atalarının, analarının baxışları, gözləri bir-birinə çox bənzəyir. Onların gözləntilərinin bir adı var: Nə vaxtsa gələcəklər!

Şəhidimizin atası da bu ümidlə qapını açmışdı: “Deyəsən, gələn Odur!”

Bu gün bütün şəhid qapılarını döymək, onlarla həmdərd olmaq, təsəlli vermək hər birimizin borcudur. Sayğısızlıq göstərsək, başımızın üstündən göy, ayağımızın altından yer qaçar.

“Nə zəhmət çəkmisiniz”,- dedi şəhidimizin atası Seyfəddin kişi, anası Həzimə xanım boynumuzu qucaqladı. “Elə torpaqlarımızın ilk qoruqçuları, müdafiəçiləri, ilk şəhidlərimiz də polislər olub, bu gün də onlar ölkəmizdə əmin-amanlığı qorumaq üçün səfərbərdirlər”,-dedi ata. Məlum oldu ki, Fəxrəddinin əmisi Nizami Mustafayev də polisdir. Fəxrəddinlə birgə nəslin daha bir igid oğlu Mahir Mirzəyev də aprel döyüşləri qəhrəmanıdır.

“1988-ci ildə ata-baba yurdumuzdan zorla qovulduqdan sonra elə bilirdim ki, sığınmağa heç kimim, heç nəyim yoxdur. Atadan-anadan yox, torpaqdan yetim qalmışdıq. Hər gün yuxuda əzizlərinin uyudu-

daxil olub. 2016-cı ilin aprel ayında təmas xəttində baş verən atışma zamanı şəhidlik zirvəsinə ucalıb. O, ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Hərbi xidmətdə fərqlənməyə görə” III dərəcəli medalı ilə təltif edilib. Məzarı Pirşağı qəbristanlığındadır...

*****

Vaxtı, zamanı unutmuşuq. Nə su yadımıza düşür, nə də çörək. Elə bil bütün dünyanı “yemişik”.

Daha bir aprel şəhidimizin evini, ailəsini ziyarət etmək üçün tələsirik.

Ağ saçlarına dərd çökmüş kişini uzaqdan tanıyırıq. Emin Bağırovun atası İmran dayıdır. Elə onun da ilk sözü bu olur: “Nə zəhmət çəkmisiniz?”...

Eminli xatirələrin sükutu çökür şəhid ocağına. Məktəbə getdiyi gündən şəhid olduğu günə kimi onu xatırlayırlar. Yenə gözlər yola dikilir, yenə də “Ana, mən gəldim” sözünə tamarzı qalır qulaqlar. Şəhidimizin bəlkə də özü boyda olan böyüdülmüş şəklinə baxanda mənə elə gəlir ki, Emin şəkil çəkdirməkdən həmişə qaçıb. Bəlkə də heç valideynləri ilə birlikdə



üst-üstə 3-5 şəkli yoxdur. Elə onun həmin şəklinin yanında xatirə şəkli çəkdirəndə İmran kişinin gözlərinin dərinliklərindəki hüznlü fikri sezə bildim: “Oğlum, mən axı, şəkildə sənsiz yaxşı düşmürəm”...

“Hərbi xidmətə yola düşən günü-2014-cü il oktyabrın 8-i sevincinin həddi-hüdudu yox idi. Əvvəlcə Beyləqanda hərbi xidmət keçdi. Vətənpərvərliyi, cəsarəti, verilən tapşırıqları heç bir çətinlik olmadan yerinə yetirməsi komandirinin də diqqətindən yayınmayıb. Nümunəvi xidmətinə görə iki dəfə məzuniyyətə buraxıldı. Bir gün mənə xəbər göndərdi ki, Xüsusi Təyinatlı bölüyə yazılmaq istəyir. Sonuncu dəfə martın axırında evə gələndə çox dəyişmişdi. Elə bil ki, boyu uzanmışdı, daha cüssəli olmuşdu.

Aprelin 1-i cəbhədən xəbərləri eşidəndə narahat olduq. Ayın 2-də ondan gələn zəngdən sonra yerə-göyə sığmadım. Eləcə yorulmadan deyirdi: “Ata, biz qalib gələcəyik, düşmən qaçır. Onunla danışdıqdan sonra bir az təsəlli tapdım”...

Komandiri əməliyyata gedən dəstəyə Emini salmayıbmış. Bunu eşidəndə pərt olub və komandirinə: “Mənim evdə iki qardaşım da var”,- deyib. Yəqin sonrasını siz də, xalqımız da yaxşı bilir...

Və kiçik bir xatırlatma: **Emin İmran oğlu Bağırov** 1996-cı il 15 iyulda Bakıda anadan olub. 2016-cı ilin aprel ayında şəhidlik zirvəsinə ucalıb. O da ölümündən sonra “Hərbi xidmətdə fərqlənməyə görə” III dərəcəli medalı ilə təltif edilib.

Aylar, illər keçsə də bu görüşlərin, bu ziyarətlərin sonu olmayacaq. Əksinə, şəhid ailələrini, onların doğulduqları ocaqları, ata yurdlarını ziyarət edənlərin sayı gündən-günə çoxalacaq. Və biz bilirik ki, bu torpağı, bu xalqı uca yaradan Vətən sevdalı, bir az da obrazlı desək, baxanda dibi görünən saf insanlarının xatirinə birliyinə və bütövlüyünə qovuşduracaq. Daha doğrusu, biz o torpaqları azad edib ona qovuşacağıq.

*Hafiz Təmirov, polis mayoru*

**Həyata insan gəlir, bapbalaca bir insan. Bu məsum varlığın dünyaya gəlməsinə ata-ana, nənə-baba, bütün qohum-əqrəba sevinir.**



Bəli, həmin balaca yavaş-yavaş böyüyür, uşaqlıq illərinə qədəm qoyur. Ona cürbəcür oyuncaqlar alınır, əlindən tutub bağçaya aparırlar.

İllər keçir, məktəb yaşına çatır.

Budur, ilk zəng…

Cingilti ilə səslənən ilk zəng. Səsi o qədər təsirlidir ki, nəvəsini 1-ci sinifə gətirənlər belə bu səsin təsirindən kövrəlirlər.

İlk zəngin səsi heç zaman unudulmur…

# YOLUN BAŞINDA...

Mən də iki övladımı məktəbə yola salacam.

Onlar kimi mən də həm sevinirəm, həm də həyəcanlanıram. Bu sevinclə bərabər həm də qayğılarımız var. Onlar həyəcanlanır, sevinir, biz sevinirik, qayğılanırıq, qarşımızda dağ kimi dayanan arzulara, problem və görüləcək işlərə baxıb düşünürük.

Bütün Azərbaycan övladlarının müstəqil dövlətimizə layiqli vətəndaş, sabahın qurucuları, işıqlı əməllər sahibi olmasını arzulayırıq. Düşünürük ki, sabahın neçə-neçə ziyalısı, fikir, bilik adamı bu xırda sıralardan boy verəcək. Onda qürurlanır, məsuliyyət hissi keçiririk həm də.

***Dönüb nisgillə ötən illərə, fərəhlə gələnlərə baxıram…***

***Hamımıza xeyirli, uğurlu olsun…***

*R.Zahidqızı*

# RESPUBLİKA BAŞ PROKURORLUĞU VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Prokurorluq və polis orqanlarının əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində Beyləqan rayonunda törədilmiş ağır cinayətin üstü açılıb.

Belə ki, 2018-ci il sentyabrın 4-də Quba rayon sakini İlqar Fərhadov hüquq-mühafizə orqanlarına müraciət edərək qardaşı, Beyləqan rayonunun Türklər kəndindəki fermanın ərazisində tikdirdiyi evdə yaşayan və heyvandarlıqla məşğul olan İldırım Fərhadovun cari il iyul ayının 28-də Rusiya Federasiyasının Yessentuki şəhərinə istirahətə getdiyini və ötən müddət ərzində ondan məlumat ala bilmədiyini bildirib.

Müraciətlə əlaqədar polis əməkdaşları tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinə başlanılıb və onun respublikanı tərk etmədiyi müəyyənləşdirilib.

Araşdırmalar zamanı İ.Fərhadovun qeyri-rəsmi nikah münasibətində olduğu Əzizə Sadıqovanın sahibkarın itkin düşməsilə birbaşa əlaqəsinin olmasına əsaslı şübhələr yaranıb.

Sentyabrın 9-da Bakı şəhərində saxlanılmış Ə.Sadıqova təkzibedilməz sübutlar və şahid ifadələrindən sonra İ.Fərhadovun cari il iyul ayının 26-da sonuncuya məxsus fermada Beyləqan rayonunun Dünyamalılar kənd sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Şahsuvar Əsədov tərəfindən odlu silahla qətlə yetirildiyini və elə həmin ərazidə basdırıldığını etiraf edib.

Keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri ilə Ş.Əsədov həmin gün Dünyamalılar kəndinin ərazisində tutulub. Ş.Əsədovun evinə baxış zamanı hadisəni törədərkən istifadə etdiyi, müvafiq sənədləri olmayan 1 ədəd “İJ-16” markalı tüfəng maddi sübut kimi götürülüb. İldırım Fərhadovun basdırıldığı yer müəyyənləşdirilib, sonradan izi itirmək məqsədilə üzərində təndir tikilmiş ərazi qazılıb və meyit ekşqumasiya edilərək aidiyyatı üzrə təhvil verilib.

Faktla əlaqədar Beyləqan Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.1 (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə) və 120.2.5-ci (tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxu- malarından istifadə etmək məqsədi ilə adam öldürmə) maddələri ilə cinayət işi başlanılıb.

Hər iki şəxs istintaqa ifadəsində bu ağır cinayəti tamah məqsədilə törətdiklərini etiraf ediblər.

İş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*11 sentyabr 2018-ci il.*

# MARAQ DÜNYASI



### YENİ TEXNOLOGİYA

Alimlər ilk dəfə olaraq, əsas zəlzələdən sonra baş verən yeraltı təkanları dəqiqliklə qeydə alan və təkrar zəlzələ ehtimalını müəyyənləşdirən cihazlardan istifadə ediblər.

Harvard Universitetindən tədqiqat qrupunun hazırladığı yeni texnologiya zəlzələlərin xüsusiyyətlərini konkret şəraitdə öyrənməyə imkan verəcək. Tədqiqata rəhbərlik edən professor Brendan Medi bildirib ki, alimlərin əsas məqsədi yeraltı təkanların vaxtını və şiddətini öyrəndikdən sonra gələcək zəlzələ ehtimalının dəqiqləşdirilməsidir. Onun sözlərinə görə, uzun sürən elmi araşdırmalar zamanı 100 mindən çox yeraltı təkan, o cümlədən 2011-ci ildə Yaponiyada baş vermiş zəlzələ neyron şəbəkəsi olan cihazların vasitəsilə öyrənilib. Məlum olub ki, son illər baş vermiş zəlzələlər əvvəlkilərdən fərqlənir.

İnsanın beyin modeli əsasında yaradılan həssas neyron şəbəkəsi əsas zəlzələdən sonra kiçik yeraltı təkanları hesablayır və onların gücünü müəyyən etməklə proqnozlar verə bilir.

### 12 KONTEYNERLİ EV

Çinin Şansi əyalətindəki orijinal konstruksiyaya malik ev nəinki turistlərin, eləcə də arxitektorların da diqqətini cəlb edir.

Ev iki mərtəbəli olmaqla, ümumilikdə şahmat qaydasında düzülmüş 12 konteynerdən ibarətdir. Birinci mərtəbədə quraşdırılmış pilləkən vasitəsilə asanlıqla ikinci mərtəbəyə və evin damına çıxmaq mümkündür.



### NADİR QIZIL KÜLÇƏLƏR

Avstraliyanın qərbində mədənçilər tərkibində böyük miqdarda qızılın olduğu iki böyük daş parçası aşkar ediblər. Daşlardan hər biri bir neçə milyon dollar dəyərindədir.

“RNC Minerals” mədən şirkətinin məlumatına görə, 95 kiloqram ağırlığında olan birinci daş parçasında təqribən 2400 unsiya (70 kiloqramdan çox) qızıl var. Kalqurli yaxınlığında yerləşən həmin mədəndən ötən həftə təxminən



11 milyon dollar dəyərində qızıl çıxarılıb. Şaxtaçıların son tapıntıları çox nadir hesab edilir.

Qızılaxtaranların qənaətinə görə, böyük daşın təqribi qiyməti 3 milyon dollar, 63 kiloqram (təqribən 1600 unsiya qızıl) ağırlığında olan ikinci daşın qiyməti isə 1,9 milyon dollardır.

*Çingiz Şıxverdiyev*

# BİLMƏYİMİZ VƏ ƏMƏL ETMƏYİMİZ VACİBDİR...

**"Kitabı oxuyanlar bir daha hiss edəcəklər ki, sağlamlıq həyatın ən böyük sərvətlərindən biridir. Hər bir adamın vəzifəsi sağlamlığı qoruyub-saxlamaq, onu düşünərək və qənaətlə sərf etməkdir, özünün və başqalarının sağlamlığına ziyan gətirən pis vərdişlərdən əl çəkməkdir..."**

Təqaüdə çıxsalar yenə də xoş sədaların eşidəndə ürəyimiz sinəmizə sığmır. Bu fikri elə veteranlarımızın çoxuna aid etmək olar. Ancaq elələri var ki, barələrində bir-iki vərəq yox, bir kitab belə yazsaq duyğularımız bəs etməz, sözümüz tükənər.

O, uzun illər sağlamlığımızın keşiyində durub. Sözün də, yiyələndiyi peşələrin də məsuliyyətini dərk edən, yapışdığı işə ürəyini qoyan insanlardandır. Peşəsi zərgər dəqiqliyi ilə işləməyi sevir, çünki hər şeydən qiymətli insan həyatına məsuliyyət daşıyır. Çoxumuz onu elə beləcə: "Ramiz həkim" kimi yadımızda saxla- mışıq.

Respublikanın əməkdar həkimi, tibb və fəlsəfə üzrə fəlsəfə doktoru, ali dərəcəli uroloq, təqaüddə olan tibb xidməti polkovniki Ramiz Əkbərov bu dəfə də illərlə ərsəyə gətirdiyini, yüz ölçüb bir biçdiyini, tibbin çətin dilini ana türkcəmizə çevirib bizləri maarifləndirmək üçün həmmüəllif-lər-tibb üzrə fəlsəfə doktoru, ali dərəcəli nefroloq Rüfət Məmmədov və həkim-uroloq Kamran Əkbərovla birgə Allahın verdiyi ömür payına biganə olmamağa çağırır.

Bu həm də kitaba, elmə, biliyə çağırışdır. Ona qoşulmaq üçün elə bizlərin də oxuması vacibdir. Söhbət sağlamlıqdan gedir. Təkcə ölkəmizdə deyil, bütün dünyada, sözün əsl mənasında, problemə çevrilən böyrək daşı xəstəliyinin yaranma səbəbləri, onun müalicə üsulları və tibbi müdaxilə barədə məlumatların, özü də müasir tibbi nöqteyi nəzərdən təsdiqini tapmış araşdırmaların yer aldığı bu kitab əbəs yerə deyil ki, müəlliflər tərəfindən geniş oxucu kütləsi, deməli, həm də bizim üçün nəzərdə tutulub.

Tibbi terminlərin izahı, xəstəliyin insan orqanizminə zərəri barədə fikirlərin hər kəsin başa düşəcəyi bir şəkildə yazılması müəlliflərin oxucuya olan saygısının bariz nümunəsidir. Sözügedən xəstəliyə böyüklərlə yanaşı, dəyişən dünyamızda kiçiklərin də mübtəla olması artıq həyacan siqnalıdır və bu həkimlərimizin diqqətindən yayınmayıb. Bu barədə kitabın böyük bir bölümündə geniş məlumat verilir.

Əziz oxucular, kitab ixtiyarınızdadır. Həm sağlamlığınızın qeydinə qalın, sizi narahat edən ağrıların "dilini" öyrənin, həm də "Sağlamlıq haqqında müdriklərin dedikləri" ruhunu, könlünüzü söz adlı işığa qərq etsin.

*Hafiz Təmirov,*
*polis mayoru*



# PAYIZ GƏLİR...

**Fəsillərdən ən gözəlidir payız... Ruha sakitlik, duyğulara inanılmaz zövq verir. Çevrədə qızıl rənginə bürünmüş gözəlliklərə baxmaqdan doymur insan.**



Gözəl Bakımızda payızı duymaq, onunla iç-içə yaşamaq bir başqa zövqdür. Çinar yarpaqlarının xışıltısında xəyallara dalmaq, yenicə yağmış yağışın altında islanmaq ömürə-ömür qatır.

Payıza son bahar da deyirlər. Baharda torpaq, payızda duyğular oyanır, yeni duyğular, yeni həyəcanlar doğulur.

Payızın öz ruhu var. Bir də, nədənsə payız fəslində insan daha kövrək olur.

Durnalar da payızda köç edir. Deməli, ömrümüzün bir az qaygılı, bir az da ürək və kövrək günləri bizimlə qucaqlaşır.

*Yer qızıl, göy qızıl, hər tərəf qızıl,*
*Onun hasarı yox, çəpəri yoxdur.*
*Payız qızılını hamıya qıyır…*

Payız gəlir… İnsanlar, gözünüz aydın!

*Ruhiyyə Əliyeva*

# "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 16 sentyabr 2018-ci il tarixdən 31 may 2019-cu il tarixədək mövsüm üzrə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**16 sentyabr 2018-ci il - 31 may 2019-cu il**
**(2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 160 manat, bir nəfər tək qaldıqda 120 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 20,00 manat | 30,00 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 40,00 manat | 60,00 manat |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 80,00 manat | 120,00 manat |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |

# HİKMƏT XƏZİNƏSİNDƏN

◆Dünya və axirət xeyri elm ilə yanaşıdır.

◆Əgər insanlar elm kəsb etməyin necə böyük və dəyərli olduğunu bilsəydilər, onu hətta qanların axıtmaqla, tufanlı, dalğalı dənizləri yarmaqla belə öyrənərdilər.

◆Heç bir sərvət ağıldan böyük, heç bir yoxsulluq cahillik və savadsızlıq kimi deyil, heç bir qorxu özünü bəyənməkdən dəhşətli ola bilməz və heç bir yaşayış gözəl xasiyyətdən ləzzətli deyil.

◆Kimin nə qədər ümidi varsa, o qədər bilir.

◆Bütün sözlər təhlükəlidir: Xoş söz həsəd doğurar, ağılsız söz utanc gətirər.

◆Biliyə qiymət verən adamlar yetişmiş ağıl sahibləridir.

◆Xəstələnəndə yaxşı həkim axtardığın kimi, dərdə çarə istəyəndə də ağıla müraciət et.

◆Hər kəsin yanında hər şeyi danışma, çünki hər kəsə hər şey lazım deyil.

◆Görünüşündən müsbət bir nəticə əldə edə bilmədiyin adamın sözündən də müsbət nəticə ala bilməzsən.

◆Ağlı kamil olan kimsə az danışar.

◆Yaramazı bir anda tanımaq olar, namuslu adamı tanımaq üçün isə uzun illər lazımdır.

◆Adamlar arasında həyalı olmaq yaxşı hissdir, özü-özünün qarşısında həyalı olmaq isə daha yaxşıdır.

◆Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.

*Çapa hazırladı: T.Aytən*

## Sentyabrın 5-dən 11-dək olan müddət ərzində...

● Respublikanın daxili işlər orqanları tərəfindən 738 cinayət qeydə alınmış, onların 141-i «isti izlər»lə açılmışdır.

● Əvvəlki dövrlərdən bağlı qalmış 101 cinayətin açılması təmin olunmuşdur.

● Axtarışda olduğuna görə ümumilikdə 185 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 4 nəfər, borclu şəxs qismində axtarışda olan 88 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.

● Avtomobil yollarında 17 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 7 nəfər ölmüş, 24 nəfər xəsarət almışdır.

● Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 53 fakt müəyyən edilmişdir.

● Cinayət törətməkdə şübhəli bilinən 199 nəfər saxlanılmışdır.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti iş yoldaşları Elxan Cahangirova əzizi
**NAVELLA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Növbətçi Hissələri İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt ŞPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Orxan Mansurzadə, İlham Babayev, Çingiz Şıxverdiyev, Hafiz Təmirov Hacıqabul RPŞ-nin rəis müavini Azər Hüseynova əzizi
**SALEH CƏNNƏTOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sabunçu RPİ-nin rəisi Eldar İlyasov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron RPİ-nin rəisi Şəhriyar Şəmşirli və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi RPİ-nin rəisi Namiq İsmayılov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xəzər RPİ-nin rəisi Azər Muradov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Suraxanı RPİ-nin rəisi Namiq Həsənov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti DİN İdman Cəmiyyətinin rəis müavini Eçin Rüstəmova anası
**DÜRNİSƏ RÜSTƏMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabirabad RPŞ-nin rəisi Namiq Camalov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şamaxı RPŞ-nin rəisi Şahin Mirzəyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kürdəmir RPŞ-nin rəisi Sultan Zeynalov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti rəis müavini Azər Hüseynova əzizi
**SALEH CƏNNƏTOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Füzuli RPŞ-nin rəisi Xəqani Məmmədov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daşkəsən RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran RPŞ-nin rəisi Əli Mərdanov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zəngilan RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00